# Rəsmi Tehranın "unutduğu" öhdəliyi və puça çıxan yalanları

Dünyanın ayrı-ayrı dövlətləri yanvarın 27-də İranın paytaxtı Tehranda Azərbaycan səfirliyində törədilən terror aktını qətiyyətlə pisləyir və beynəlxalq qaydalara uyğun olaraq diplomatik binaların qorunmasının təmin olunmasının vacibliyini vurğulayırlar.

İranın Yasin Hüseynzadə adlı vətəndaşının əlində avtomat çox asanlıqla Azərbaycan səfirliyinə daxil ola bilməsi və orada terror rüzgarını əsdirməsi özü xeyli suallar, müəmmalı məqamlar ortaya çıxarır...

Necə oldu ki, terrorçu bu qədər rahatlıqla başqa bir ölkənin ərazisi sayılan səfirlik binasının qapısından içəri keçə bildi? Həm də əlində "Kalaşnikov" avtomatı, nümayişkaranə şəkildə. Terror hadisəsinin qarşısını almaq üçün həmin ərazidə olan polis əməkdaşı heç bir cəhd göstərmədi. Sonradan da hər hansı operativ addımların atılması müşahidə olunmadı.

Azərbaycan səfirliyinin mühafizə xidmətinin rəisi, baş leytenant Orxan Əsgərovu şəhid edən, digərlərini yaralayan terrorçunun növbəti hücumlarının qarşısını səfirliyimizin qəhrəman mühafizə xidmətinin əməkdaşı Vasif Tağıyev almasaydı, onu zərərsizləşdirməsəydi, daha çox insan ölə bilərdi. Görünən odur ki, bütün səfirlik əməkdaşlarının qətlə yetirilməsi planlaşdırılmışdı.

Hadisədən bir qədər sonra saxlanılan terrorçu Yasin Hüseynzadəni nə əli qandallı, nə də barmaqlıqlar arxasında gördük. Əliqanlı qatil çox sərbəst şəkildə İran televeziya kanallarına müsahibə verdi.

Görünür, İran illərdir terrorçuları dəstəkləməklə böyük təcrübə qazanıb. Uzun illərdir fars hökuməti din qardaşlarının - azərbaycanlıların düşmənlərinin yanındadır. Onlar azərbaycanlılara qarşı terrorlar, soyqırımları həyata keçirən ermənilərə hər cür kömək göstərirlər. Ermənilərə otuz ilə yaxın işğal altında saxladıqları Azərbaycan ərazilərindəki məscidləri tövlələrə çevirdiklərinə görə qaşın üstə gözün var deməyiblər. Əksinə, dost, qardaş olublar. Belə məlum olur ki, İran indi də öz içindəki terrorçuya yiyə durmağa, sahiblənməyə, onu qorumağa çalışır.

Hiddət doğuran başqa bir məqam isə terror hadisəsindən dərhal sonra verilən açıqlamalar oldu. İran rəsmiləri Azərbaycanın Tehrandakı səfirliyinə qarşı edilən terror hücumunun şəxsi zəmində baş verdiyini iddia etdi. İran XİN-in teleqram kanalında paylaşılan məlumatda bildirildi: "İran XİN və DİN-in rəhbərləri Hüseyn Əmir Abdullahian və Əhməd Vahidi silahlı hücumun məqsəd və motivlərini nəzərdən keçiriblər. Onlar belə müəyyən ediblər ki, ilkin müşahidə və dəlillərə əsasən, silahlı şəxs hücumu şəxsi zəmində edib".

Məsuliyyətdən yayınmağa, məsələnin mahiyyətini təhrif etməyə və kiçiltməyə çalışan İran hökumətinin problemin məişət hadisəsi olması, guya terrorçunun həmin əraziyə uşaqla gəlməsi ilə bağlı digər uydurmaları, yalanları puça çıxdı. İran xüsusi xidmət orqanları ilə bağlılığı olan terrorçunu hədəfdən yayındırmaq, yerli və beynəlxalq ictimaiyyətdə yanlış rəy formalaşdırmaq üçün özlərini oda-közə vursalar da, məqsədlərinə çata bilmədilər.

Faktlar ortadadır. Videogörüntülər İran rəsmilərinin versiyalarının yalan olduğunu təsdiq edir. Saxta iddialarla, əsassız sözlərlə, mənasız cəhdlərlə həqiqəti pərdələyə bilməyəcəkləri artıq İran hökumət rəsmilərinin özlərinə də bəllidir.

Həqiqət olduğu kimi bəyan edilməlidir. Azərbaycan tərəfi İrandan məsələ ilə bağlı obyektiv araşdırma gözləyir. Ancaq buna ümid çox azdır. Qeyd etdiyimiz kimi, terror hadisəsini törədən Yasin Hüseynzadə İran vətəndaşıdır. İranın xüsusi xidmət orqanları, xüsusilə də SEPAH-la terrorçunun əlaqəli olduğuna dair şübhələr mövcuddur.

İran tərəfin terror hadisəsinin mahiyyətini təhrif etmək üçün yaydığı digər bir yalan da guya hücumun erməni kimlikli şəxs tərəfindən törədilməsi oldu. Lakin terrorçunun - Yasin Hüseynzadənin adı və soyadı da erməni kökənli olmadığını göstərir.

Rəsmi Tehran ən vacib məqamlardan birini də unudur ki, motivindən, kim tərəfindən törədilməsindən asılı olmayaraq, səfirliyə hücuma görə məsuliyyət onun üzərinə düşür. Ona görə ki, ərazisindəki səfirliklərin mühafizəsi onların yerləşdiyi ölkələrin öhdəliyindədir. İran İslam Respublikası bu öhdəliyi "yaddan çıxarıb".

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***

Azərbaycan. - 2023.- 29 yanvar.- S. 6.